**Azərbaycan Respublikası**
**Xarici İşlər Nazirliyi**

| | |
|---|---|
| Haraya: | **Təmimi** |
| Surəti: | |
| Göndərilmə nömrəsi: | S/92-5531/04/17 |
| Tarix: | 06.03.17 |
| Sənəd necə göndərilir: | **Elektron poçt** |
| Səhifələrin sayı: | **5 v.** |
| Əlavə: | **4 v.** |
| Məhdudluğu qrifi: | **Adi** |
| Təciliiyi: | **Çox Təcili** |
| Vacibliyi: | **Çox Vacib** |

Azərbaycan Respublikasının işğal edilmiş ərazilərinə Azərbaycan Respublikasının müvafiq dövlət qurumlarının icazəsi olmadan xarici ölkə vətəndaşlarının, eləcə də hüquqi şəxslərinin səfər etməmələri və bu ərazilərdə hər hansı iqtisadi və digər fəaliyyətlərə cəlb olunmamaları barədə xarici ölkələrin müvafiq dövlət qurumlarının öz vətəndaşlarına, habelə hüquqi şəxslərinə xəbərdarlıq müraciətləri ünvanlaması işğal olunmuş ərazilərimizdə qanunsuz iştirakın qarşısının alınması baxımından təsirli amil hesab edilir.

Bu xüsusda, hazırda BMT üzvü olan ölkələrin müvafiq dövlət qurumlarının (xarici siyasət strukturu və ya digər hökumət orqanı) rəsmi internet səhifələrində apardığımız ilkin araşdırmadan irəli gələrək aşağıdakıları nəzərinizə çatdırırıq:

- 28 ölkənin (İspaniya Krallığının xarici siyasət orqanının internet səhifəsində Azərbaycanla bağlı xəbərdarlığın olması göstərilsə də texniki səbəbdən məlumatların əldə edilməsi mümkün olmamışdır) xarici siyasət strukturunun rəsmi internet səhifəsində Azərbaycan Respublikasının işğal altında olan ərazilərinə səfər xəbərdarlıqları yer almışdır (siyahı əlavə edilir).
- Mövcud xəbərdarlıqlar, əsasən, Dağlıq Qarabağ bölgəsi və ətraf ərazilərin münaqişə zonası olması; vətəndaşlara bu ərazilərdə konsulluq xidmətlərinin göstərilməməsi; Azərbaycan Respublikasının müvafiq dövlət qurumlarının icazəsi olmadan işğal olunmuş ərazilərə səfərlərin hüquqi nəticə doğurması; ərazilərimizdə işğal faktının mövcudluğu; 2016-cı ilin aprel ayında cəbhədə vəziyyətin gərginləşməsi kimi məlumatları əks etdirir, bəzi hallarda isə Dağlıq Qarabağ bölgəsinin Azərbaycan Respublikasının ərazisi olduğunu (misal üçün, Avstraliya, Avstriya, Finlandiya, Macarıstan, Niderland, Norveç, Polşa, Rumıniya, Ukrayna), Dağlıq Qarabağ və ətraf bölgələrin Ermənistan tərəfindən işğal edildiyini (misal üçün, Bolqarıstan, Norveç, Slovakiya) birmənalı şəkildə ifadə edir.

- İşğal olunmuş Dağlıq Qarabağ bölgəsi və ətraf ərazilərə səfər xəbərdarlıqları verən bəzi ölkələrin müvafiq dövlət qurumlarının dərc etmiş olduğu mətnlərdə işğal altında olan ərazilərə, ələlxüsus da Dağlıq Qarabağ bölgəsinə istinadən "Ermənistan və Azərbaycan arasında mübahisə", "həll olunmamış mübahisə", "davam edən mübahisə", "mübahisəli zona/ərazi/anklav" və s. kimi ifadələrdən istifadə hallarına rast gəlinir (misal üçün, Kanada, Xorvatiya, Estoniya, İrlandiya, Latviya, Norveç (bu ölkə, eyni zamanda, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı faktını qeyd etmişdir), Slovakiya, İsveçrə, Birləşmiş Krallıq). Müqayisə üçün qeyd edək ki, bu kimi yanaşmaya Ukraynanın işğal altında olan Krım, Donetsk və ya Luqansk bölgələri ilə bağlı rast gəlinməmişdir.
- Fransa və Çexiyanın xarici siyasət strukturlarının işğal olunmuş ərazilərimizlə bağlı səyahət xəbərdarlıqlarında "tanınmamış Dağlıq Qarabağ Respublikası" ifadələrinə rast gəlinmişdir.
- Belarus Respublikasının XİN-nin rəsmi internet səhifəsində ayrı-ayrı ölkələr üzrə səyahət xəbərdarlıqları aşkarlanmasa da, sözügedən mənbədə ölkə vətəndaşlarının xaricə səyahət öncəsi səfər edəcəkləri ölkələr barədə məlumat əldə etməsi üçün "La Strada" beynəlxalq proqramının internet səhifəsinin məlumatlarından istifadə etməsi təklif edilir[1]. Proqramın internet səhifəsində (www.lastrada.by) apardığımız ilkin araşdırma zamanı işğal edilmiş ərazilərimizdə yaradılmış qondarma qurumun "Dağlıq Qarabağ Respublikası" kimi təqdim edildiyi aşkarlanmışdır. Məlumatda qondarma "DQR"-in Azərbaycanla "qarşıdurma"dan sonra "müstəqllik əldə etdiyi" qeyd olunmaqla yanaşı, bu ərazilərə "viza" əldə edilməsi barədə məlumat verilir;
- Qonşu ölkələrin müvafiq dövlət qurumlarının internet səhifələrində işğal olunmuş ərazilərimizə səyahətlə bağlı xəbərdarlıqlara rast gəlinməmişdir. Bu xüsusda, diqqəti daha çox Gürcüstan və Türkiyə çəkir. Belə ki, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin rəsmi internet səhifəsində Gürcüstanın işğal altında olan ərazilərinə səfərlərlə bağlı xəbərdarlığın olduğu halda, Gürcüstan XİN-in internet səhifəsində müvafiq xəbərdarlıq aşkar olunmamışdır. Türkiyə XİN-nin rəsmi internet səhifəsinə gəlincə, qeyd olunan mənbədə Ermənistan-Azərbaycan münaqişəsinə dair məlumatlar yer alsa da, Türkiyə vətəndaşlarının işğal olunmuş ərazilərə səfərlərdən çəkindirəcək mesaj aşkar edilməmişdir.
- Müxtəlif ölkələrin bu və ya digər regionda öz vətəndaşlarına təhdid yarada biləcək hallarla bağlı öncədən məlumatlandırma təcrübələri müxtəlifdir: bəzi ölkələrdə bu, səyahət xəbərdarlıqları (*travel advisory/warning/alert*) şəklində (misal üçün, siyahıdakı ölkələr), bəzi ölkələrdə isə ayrı-ayrı hallar üçün verilən elanlar (*event information*) şəklində (misal üçün, Çin, Baham adaları, İsrail, İslandiya, Rusiya, Sinqapur və s.) dərc edilir. Bir qisim ölkələrdə səyahət xəbərdarlıqları bölməsi olsa da, Azərbaycanın işğal altında olan əraziləri ilə bağlı məlumat dərc edilməmişdir (misal üçün, Botsvana, Danimarka, İndoneziya və s). Digər qisim ölkələrdə isə ümumumiyyətlə, bu kimi təcrübəyə rast gəlinməmişdir.
- Azərbaycan Respublikasının işğal altında olan əraziləri ilə bağlı səyahət xəbərdarlıqlarına, əsasən həm Azərbaycan, həm də Ermənistanın ölkə profilləri altında rast gəlinir. Buna baxmayaraq, bəzi ölkələrdə bu xəbərdarlıqlar yalnız ölkəmizə aid səhifədə verilməkdədir (misal üçün, Böyük Britaniya, Norveç, Serbiya, Litva).

---

[1] https://mfa.gov.by/visa/vyjezd/

- İşğal olunmuş ərazilərlə bağlı xəbərdarlıqlar araşdırılarkən bir sıra ölkələr tərəfindən Azərbaycanla bağlı verilmiş ümumi məlumatlarda ölkəmizin turizm imkanlarının həqiqətəuyğun şəkildə işıqlandırılmaması müşahidə olunmuşdur.

Ümumi müqayisə üçün müxtəlif ölkələrin Ukraynanın işğal edilmiş əraziləri (Krım yarımadası, Donetsk və Luqansk bölgələri) barədə vermiş olduğu səyahət xəbərdarlıqları da tərəfimizdən təhlil edilmişdir. Bu zaman bir sıra ölkələrin məsələyə dair dərc etdikləri səyahət xəbərdarlıqlarında, əsasən aşağıdakı məqamlar diqqətimizi cəlb etmişdir:

- Səyahət xəbərdarlığı dərc edən bir sıra ölkələr Ukrayna ərazilərinin Rusiya tərəfindən işğalı faktını qeyd edir və Ukraynanın ərazi bütövlüyünə açıq dəstək ifadə edir (misal üçün, Norveç, Polşa, İsveçrə, Belçika, Estoniya, Fransa və s.);
- Ukraynanın işğal altında olan ərazilərinə səyahətlə bağlı xəbərdarlıq dərc edən bəzi ölkələr eyni münasibəti Azərbaycanın işğal altında olan əraziləri ilə bağlı nümayiş etdirmir (misal üçün, ABŞ, Almaniya, İslandiya və s.). ABŞ-la bağlı qeyd edilməlidir ki, ölkənin xarici strukturu tərəfindən Azərbaycanın və Ermənistanın ölkə profilləri altıda Dağlıq Qarabağ bölgəsində təhlükəsizlik vəziyyəti ilə bağlı ümumi məlumat yerləşdirilmişdir[2]. Dövlət Departamentinin vaxtaşırı qaydada dərc etdiyi səyahət xəbərdarlıqları səhifəsində isə işğal altında olan ərazilərlə bağlı heç bir məlumata rast gəlinməmişdir[3];
- Bir sıra ölkələr hətta öz vətəndaşlarına qısa zamanda Krım yarımadasının ərazisini tərk etməyə çağırır (misal üçün, Çex Respublikası, İrlandiya, Polşa, Yeni Zelandiya və s.).

**Qeyd olunanları diqqətə alaraq, aşağıdakı addımların təxirəsalınmadan atılmasını, görülən işlər və nəticələr barədə Mərkəzin mütəmadi əsasda məlumatlandırılmasını xahiş edirik:**

1. Əlavə edilmiş siyahıda göstərilən ölkələrdə (ingilis dilli ölkələr istisna olmaqla) akkreditə olunmuş diplomatik nümayəndəliklərimizin müvafiq xarici dillərdə olan mətnlərin (URL linklərə keçin) Azərbaycan, ingilis və ya rus dillərinə tərcüməsinin təmin edilməsi və elektron variantının Mərkəzə, n_bakhishov@mfa.gov.az ünvanına təqdim edilməsi: Səyahət xəbərdarlıqlarının, əsasən yerli xalqa müraciətdə verilməsi ilə bağlı olaraq mətnlərin əksər hallarda ölkələrin milli dillərində yerləşdirilməsi səbəbindən tərcümə zamanı bəzi səhvlərin və ya anlaşılmazlıqların yaranması tərəfimizdən istisna edilmir. Bu kimi halların qarşısının alınması üçün mətnlərin tərcüməsinin diplomatik nümayəndəliklərimiz tərəfindən təmin edilməsi zəruridir.
2. Akkreditə olunduğunuz ölkələrin müvafiq dövlət qurumlarının öz ölkə vətəndaşlarının Azərbaycanın işğal altında olan ərazilərinə səfər etməməsi və ya bu ərazilərdə Azərbaycan Respublikasının qanunvericiliyi ilə ziddiyyət təşkil edən hər hansı qanunsuz fəaliyyətlər aparmaması barədə xəbərdarlıqların verildiyi internet resurslarının mütəmadi əsasda nəzarətdə saxlanılması (mətnlərin maraqlarımıza uyğunlaşdırılması), bununla belə, ölkəmizin işğal edilmiş əraziləri barədə xəbərdarlıqlar verməyən ölkələr və ya böhran hallarında öz vətəndaşlarına xaricə səyahət zamanı qarşılaşa biləcəkləri çətinliklər barədə məlumat vermə təcrübəsinə malik olan, lakin Azərbaycanın işğal altında olan əraziləri barədə heç bir xəbərdarlıq dərc etməyən ölkələrin

---

[2] https://travel.state.gov/content/passports/en/country/azerbaijan.html

[3] https://travel.state.gov/content/passports/en/alertswarnings.html

aidiyyəti dövlət qurumları ilə müvafiq istiqamətdə işin aparılması: Yuxarıda qeyd edildiyi kimi, bəzi ölkələrin sistematik olaraq səyahət xəbərdarlığı vermək təcrübəsi mövcud deyildir. Belə olan halda, vətəndaşlar üçün ümumi elanın verilməsi istiqamətində işin aparılması faydalı ola bilərdi;

2.1. 2-ci paraqrafla bağlı müvafiq fəaliyyətin qurulması zamanı aşağıdakı məlumatların diqqətə alınmasını zəruri hesab edirik:

Turizmin Qlobal Etika Məcəlləsinin (*Global Code of Ethics for Tourism*) 6-cı maddəsinin 5-ci paraqrafı ölkələrin öz vətəndaşlarını xaricə səyahət zamanı qarşılaşa biləcəkləri çətinliklər və təhlükələr barədə öncədən məlumatlandırma təcrübəsinə dair əsas davranış prinsiplərini müəyyən edir. Belə ki, "*dövlətlər, xüsusən böhran hallarında öz vətəndaşlarına xaricə səyahət zamanı qarşılaşa biləcəkləri çətinliklər, hətta təhlükələr haqqında məlumat vermək hüququna malikdir*" və "*belə bir öhdəlik* [duty] *daşıyır*[lar]". Bununla belə, Məcəlləyə görə, səyahət xəbərdarlıqlarını dərc edən ölkələr "*turist qəbul edən ölkənin turizm sənayesinə və öz ölkələrindəki şirkətlərin maraqlarına əsassız və ya şişirdilmiş şəkildə zərər vurmamalı*"; "*belə xəbərdarlıqların məzmunu turist qəbul edən ölkənin rəhbərliyi və aidiyyəti peşəkarlarla əvvəlcədən müzakirə olunmalı*"; "*hazırlanmış tövsiyələr yaranmış vəziyyətin ciddiyyətinə tam uyğun olmalı və təhlükənin yarandığı zonalarla məhdudlaşmalıdır*".

2.2. Səyahət xəbərdarlıqlarının Azərbaycan Respublikasının maraqlarına tam cavab verməsi üçün mətndə aşağıdakı vacib komponentlərin əks olunması əhəmiyyətlidir:

- Azərbaycanın Dağlıq Qarabağ və ətraf bölgələrinin Ermənistan tərəfindən işğalı;
- Azərbaycan Respublikasının aidiyyəti dövlət qurumlarının icazəsi olmadan həmin ərazilərə həyata keçirilən səfərlərin və ya bu ərazilərdə hər hansı iqtisadi və digər fəaliyyətlərin Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə uyğun olaraq hüquqi məsuliyyət yaratması[4]; bu şəxslərin gələcəkdə Azərbaycana girişinə, habelə Azərbaycanda hər hansı fəaliyyətinə qadağanın qoyulması və qanunvericiliklə nəzərdə tutulmuş digər növ sanksiyaların tətbiq edilməsi;
- Ərazilərin hərbi işğala məruz qalması ilə əlaqədar Dağlıq Qarabağ bölgəsi və ətraf ərazilərin turist səfərlərinə qapalı olması, bu səbəbdən bu ərazilərdə səyahətçilərin və macəra axtarışında olan şəxslərin həyatlarının ciddi təhlükə altında olması;
- Dağlıq Qarabağ bölgəsi və ətraf ərazilərdə olan aidiyyəti ölkə vətəndaşlarının təxirəsalınmadan həmin əraziləri tərk etməsi.

3. SPRS və SPRQ – Fransa və Çexiyanın xarici siyasət strukturlarının rəsmi internet səhifələrində yerləşdirilmiş səhayət xəbərdarlıqlarının mətnlərində yer almış

---

[4] Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi, Azərbaycan Respublikasının Cinayət Məcəlləsi, Azərbaycan Respublikasının Vergi Məcəlləsi, Azərbaycan Respublikasının Gömrük Məcəlləsi, Azərbaycan Respublikasının Torpaq Məcəlləsi, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsi, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi, Azərbaycan Respublikasının "Sahibkarlıq haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Sosial sığorta haqqında", "Yerin təki haqqında" və digər qanunlarından irəli gələn tələblər.

"tanınmamış Dağlıq Qarabağ Respublikası" ifadələrinin çıxarılması və mətnlərin maraqlarımıza uyğunlaşdırılması istiqamətində müvafiq tədbirlərin görülməsi;

4. SMNS – Belarus XİN-nin işğal olunmuş ərazilərimizlə bağlı öz vətəndaşlarını məlumatlandırma işində ölkəmizin ərazi bütövlüyünə qarşı qərəzli münasibət sərgiləyən mənbədən istifadəsinin ən qısa zamanda qarşısının alınması; "La Strada"nın səhifəsində Azərbaycanın ərazi bütövlüyünə qarşı yönəlmiş olan yazının qeyd olunan mənbədən çıxarılması və ya müvafiq düzəlişlərin edilməsi[5];
5. SVŞN – Dağlıq Qarabağ bölgəsi və ətraf ərazilərin aktiv münaqişə sahəsi olduğunu diqqətə alaraq, ABŞ Dövlət Departamentinin müvafiq səyahət xəbərdarlığı dərc etməsi, habelə Azərbaycan və Ermənistanın ölkə profilləri altında Dağlıq Qarabağ bölgəsi və ətraf ərazilərdə təhlükəsizlik durumu ilə bağlı dərc edilmiş mətnin maraqlarımıza uyğunlaşdırılması istiqamətində müvafiq işin aparılması;
6. NBMT – diplomatik və ya konsulluq iştirakımız olmayan ölkələrlə BMT çərçivəsində müvafiq fəaliyyətin qurulması imkanlarının araşdırılması və nəticələr barədə Mərkəzin məlumatlandırılması;
7. STFL – Gürcüstan XİN-nin internet səhifəsində Azərbaycan Respublikasının işğal edilmiş ərazilərinə səfərlər və bu ərazilərdə hər hansı fəaliyyətlə bağlı gürcü tərəfinin xəbərdarlığının olmaması məsələsinin araşdırılması və müvafiq mətnin aidiyyəti dövlət qurumunun internet resursunda yerləşdirilməsinin təmin edilməsi;
8. SANK – Türkiyə XİN-nin internet resursunda məsələyə dair müvafiq məlumatın yerləşdirilməsi istiqamətində işin aparılması;
9. Bir sıra ölkələrin dövlət qurumlarının saytlarında ölkəmizin turizm imkanlarının həqiqətəuyğun olmayan tərzdə təqdim edilməsinin qarşısının alınması istiqamətində müvafiq işin aparılması.

**Hörmətlə,**

**Nazir müavini** **Araz Əzimov**

İcraçı: MRTİ

---

[5] https://www.lastrada.by/news/119/1104/?sphrase_id=1133

| Travel Warnings issued by foreign countries' foreign policy agencies with regard to unauthorized visits to the occupied territories of the Republic of Azerbaijan | | | |
|---|---|---|---|
| **Country** | **Agency** | **Azerbaijan** | **Armenia** |
| Australia | Department of Foreign Affairs and Trade | http://smartraveller.gov.au/Countries/europe/eastern/Pages/azerbaijan.aspx | http://smartraveller.gov.au/Countries/europe/eastern/Pages/armenia.aspx |
| Austria | Europe, Integration, Foreign Affairs Federal Ministry | https://www.bmeia.gv.at/reise-aufenthalt/reiseinformation/land/aserbaidschan/ | https://www.bmeia.gv.at/reise-aufenthalt/reiseinformation/land/armenien/ |
| Belgium | Foreign Affairs , Foreign Trade and Development Cooperation | http://diplomatie.belgium.be/fr/Services/voyager_a_letranger/conseils_par_destination/azerbaidjan | http://diplomatie.belgium.be/fr/Services/voyager_a_letranger/conseils_par_destination/armenie |
| Brazil | Ministry of Foreign Affairs | http://www.portalconsular.itamaraty.gov.br/alertas/viagens-a-nagorno-karabakh-e-outras-regioes-ocupadas<br><br>http://www.portalconsular.itamaraty.gov.br/seu-destino/azerbaijao#segurança | http://www.portalconsular.itamaraty.gov.br/seu-destino/armenia#segurança |
| Bulgaria | Ministry of Foreign Affairs | http://www.mfa.bg/index.php?page=120&staticpage=findanembassy&posolstvo=8 | http://www.mfa.bg/index.php?page=120&staticpage=findanembassy&posolstvo=15 |
| Canada | Government of Canada | https://travel.gc.ca/destinations/azerbaijan | https://travel.gc.ca/destinations/armenia |
| Croatia | Ministry of Foreign and European Affairs | http://www.mvep.hr/hr/konzularne-informacije/informacije-o-putovanjima/ | http://www.mvep.hr/hr/konzularne-informacije/informacije-o-putovanjima/ |
| Czech Republic | Ministry of Foreign Affairs | http://www.mzv.cz/jnp/cz/cestujeme/aktualni_doporuceni_a_varovani/armenie_azerbajdzan_neprujezdna_hranice.html | http://www.mzv.cz/jnp/cz/cestujeme/aktualni_doporuceni_a_varovani/armenie_upozorneni_pro_cestovatele.html |
| Estonia | Ministry of Foreign Affairs | http://www.vm.ee/et/riigid/aserbaidzaan?display=travel_info | http://www.vm.ee/et/riigid/armeenia?display=travel_info |

| | | | |
|---|---|---|---|
| Finland | Ministry of Foreign Affairs | http://formin.finland.fi/public/default.aspx?contentid=340122&nodeid=15735&contentlan=1&culture=fi-FI | http://formin.finland.fi/public/default.aspx?contentid=339066&nodeid=15735&contentlan=1&culture=fi-FI |
| France | France Diplomatie | http://www.diplomatie.gouv.fr/fr/conseils-aux-voyageurs/conseils-par-pays/azerbaidjan/ | http://www.diplomatie.gouv.fr/fr/conseils-aux-voyageurs/conseils-par-pays/armenie/ |
| Hungary | Ministry of Foreign Affairs and Trade | http://konzuliszolgalat.kormany.hu/europa-utazasi-tanacsok?azerbajdzsan | http://konzuliszolgalat.kormany.hu/europa-utazasi-tanacsok?ormenyorszag |
| Ireland | Department of Foreign Affairs and Trade | https://www.dfa.ie/travel/travel-advice/a-z-list-of-countries/azerbaijan/ | https://www.dfa.ie/travel/travel-advice/a-z-list-of-countries/armenia/ |
| Italy | Ministry of Foreign Affairs | http://www.viaggiaresicuri.it/paesi/dettaglio/azerbaijan.html?no_cache=1 | http://www.viaggiaresicuri.it/paesi/dettaglio/armenia.html?no_cache=1 |
| Latvia | Ministry of Foreign Affairs | http://www.mfa.gov.lv/azerbaijan/konsulara-informacija/celojuma-bridinajums | http://www.mfa.gov.lv/konsulara-informacija/celotajiem/celojumu-bridinajumi/bridinajumi/28454-armenijas-republika |
| Lithuania | Ministry of Foreign Affairs | http://keliauk.urm.lt/location/azerbaijan | http://keliauk.urm.lt/location/armenia |
| Netherlands | The Government of Netherlands | https://www.rijksoverheid.nl/onderwerpen/reisadviezen/inhoud/azerbeidzjan | https://www.rijksoverheid.nl/onderwerpen/reisadviezen/inhoud/armenie |
| New Zealand | Ministry of Foreign Affairs and Trade | https://www.safetravel.govt.nz/azerbaijan | https://www.safetravel.govt.nz/armenia |
| Norway | Ministry of Foreign Affairs | https://www.regjeringen.no/no/tema/utenrikssaker/reiseinformasjon/velg-reiserad/offisielt-reiserad-for-aserbajdsjan/id2422710/ | https://www.regjeringen.no/no/tema/utenrikssaker/reiseinformasjon/velg-land/reiseinfo_armenia/id2416297/#sikkerhet |
| Poland | Ministry of Foreign Affairs | http://www.msz.gov.pl/pl/informacje_konsularne/ostrzezenia/azerbejdzan___aktualizacja_ostrzezenia_dla_podrozujacych;jsessionid=69C3D57ADA8FC753786D6AA430D1BAF9.cmsap1p | http://www.msz.gov.pl/pl/informacje_konsularne/ostrzezenia/armenia___aktualizacja_ostrzezenia_dla_podrozujacych_2;jsessionid=2064BD584CD2D2894132FFD946A5843B.cmsap4p |
| Romania | Ministry of Foreign Affairs | http://www.mae.ro/travel-conditions/3671#802 | http://www.mae.ro/travel-conditions/3668#800 |

| | | | |
|---|---|---|---|
| Serbia | Ministry of Foreign Affairs | http://www.mfa.gov.rs/sr/index.php/konzularni-poslovi/putovanja-u-inostranstvo/vize-za-inostranstvo-i-informacije-o-drzavama/100-spisak-zemalja-za-putovanje-u-inostranstvo/10527-azerbejdzan-konz?lang=cyr | |
| Slovakia | Ministry of Foregin and European Affairs | http://www.mzv.sk/cestovanie_a_konzularne_info/detail/-/asset_publisher/Iw1ppvnScIPx/content/azerbajdzanska-republika-upozornenie-pri-cestach-do-oblasti-nahorneho-karabachu?_101_INSTANCE_Iw1ppvnScIPx_redirect=%2Fcestovanie_a_konzularne_info%2Fdetail%2F-%2Fasset_publisher%2FIw1ppvnScIPx%2Fcontent%2Fazerbajdzanska-republika%3FdisplayMode%3D1<br><br>http://www.mzv.sk/cestovanie_a_konzularne_info/detail/-/asset_publisher/Iw1ppvnScIPx/content/azerbajdzanska-republika?displayMode=1 | http://www.mzv.sk/cestovanie_a_konzularne_info/detail/-/asset_publisher/Iw1ppvnScIPx/content/armenska-republika?displayMode=1 |
| Sweden | Embassies of Sweden in Baku and Yerevan. Rerouted from the Governement's web page. | http://www.swedenabroad.com/sv-SE/Ambassader/Baku/Reseinformation/Reseinformation-sys/ | http://www.swedenabroad.com/sv-SE/Ambassader/Jerevan/Reseinformation/Armenien-sys/ |
| Switzerland | Federal Department of Foreign Affairs | https://www.eda.admin.ch/eda/de/home/vertretungen-und-reisehinweise/aserbaidschan/reisehinweise-fueraserbaidschan.html | https://www.eda.admin.ch/eda/de/home/vertretungen-und-reisehinweise/armenien/reisehinweise-fuerarmenien.html |
| Ukraine | Ministry of Foreign Affairs | http://mfa.gov.ua/ua/consular-affairs/travel-advice/4-az | http://mfa.gov.ua/ua/consular-affairs/travel-advice/28-am |

| | | | |
|---|---|---|---|
| United Kingdom of Great Britain and Northern Ireland | Foregin and Commonwealth Office | https://www.gov.uk/foreign-travel-advice/azerbaijan/safety-and-security | https://www.gov.uk/foreign-travel-advice/armenia/safety-and-security |
| United States of America | Department of State | https://travel.state.gov/content/passports/en/country/azerbaijan.html | https://travel.state.gov/content/passports/en/country/armenia.html |